BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2025

# ZƏNGƏZURA DAİR ƏRAZİ-SƏRHƏD MÜZAKİRƏLƏRİ (1920-1921-ci İLLƏR)

**İsmayıl M. MUSA***

*Məqalədə Azərbaycanın Zəngəzur bölgəsi ilə bağlı Ermənistanla aparılan ərazi-sərhəd müzakirələri araşdırılır. Başlıca diqqət çoxsaylı iclasların-mübahisələrin-müddəaların-təkliflərin-qərarların -nəticələrin təhlilinə yönəldilir. Bu tədqiqatla xeyli siyasi-diplomatik sənəd elmi dövriyyəyə cəlb olunmuşdur. İşdə habelə "Zəngəzur (Mehri) dəhlizi" və s. ilə əlaqədar müəyyən qənaətlərə də gəlinmişdir.*

**Açar sözlər**: Azərbaycan, Zəngəzur, Ermənistan, bölgə, müzakirələr, bölünmə, ilhaq, Qərbi Zəngəzur, dəhliz.

**https://doi.org/10.30546/458901.2025.03.2012**

**Giriş**. Ölkəmizin tarixi Zəngəzur mahalının bir hissəsinin Ermənistana ilhaqı 1920-ci ilin sonları – 1921-ci ilin birinci yarısında müxtəlif səviyyəli müzakirələrlə: sazişlər, qərarlar, bəyanatlar ilə "rəsmiləşdirildi və sənədləşdirildi". Onların arasından aşağıdakılar önə çəkilə bilər:
Rusiya ilə Ermənistan arasında 1920-ci il avqustun 10-da (1, v.171-172; 2, v.18-19) və dekabrın 2-də (3, s.75-76) bağlanan sazişlər.

- bir sıra yüksək səviyyəli partiya-sovet orqanlarının (qurumlarının) 1920-ci il noyabrın 4-ü, 9-u, 30-u və 1921-ci il yanvarın 12-si, martın 12-si, 14-ü, 24-ü, aprelin 2-si tarixlərində Bakıda birgə və başqa formalarda keçirilən iclaslarının qərarları (3[a] , v.17-20; 4, v.30; 5, v.15, 17, 19; 6; 7, v.51-52; 8, v.58-59);
- Bakı Sovetinin 1920-ci il dekabrın 1-də keçirilən təntənəli "tarixi" iclasında qəbul edilən Bəyanat (9;10). (Sözgəlişi, bu sənəd elmi siyasi ədəbiyyatda (11, s.303) "Nərimanovun Bəyanatı" kimi də adlandırılır).

**Təkliflər və müzakirələr (mübahisələr)** Rusiyadan və Azərbaycanın sovet-bolşevik "rəhbərliyindən razılıq, "xeyir-dua" alan ermənilər Zəngəzurun Ermənistana birləşdirilməsini sürətləndirdilər. Burada belə bir mühüm məqamı da vurğulamağa ehtiyac vardır. Belə ki, Zəngəzurun Ermə-

**Bakı Dövlət Universiteti "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının professoru; ismayilmusa@bsu.edu.az ORCID ID:0000-0002-1151-7238*

nistana "bağışlanması" artıq rəsmən elan olunsa da qəzanın onun siyasi-inzibati idarəçiliyinə keçməsi (tərkibinə qatılması) dərhal baş vermədi.

Öncə, yəni 1921-ci ilin lap əvvəlində Azərbaycan Sovet Sosialist Respublikasının (SSR-in) inzibati bölgüsünün layihəsi hazırlanarkən Zəngəzurla əlaqədar bəzi mübahisələr və təkliflər irəli sürüldü. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (AK(b) P MK-nın) Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında Zəngəzurun **müsəlman hissəsinin** (seçdirmə bizimdir; sənəddə belə yazılıbdır-İ.M.) inzibati cəhətdən təşkili barədə qərara gəlindi (12, v.15; 13, v.17).

Bununla əlaqədar olaraq da digər bir sənəddə, yəni Azərbaycan SSR-in inzibati bölgüsünə aid izahat vərəqəsində (14, v.51-52) Zəngəzurda iki qəzanın yaradılması təklif edilirdi:

- Qərbi, yəni Zəngəzur.
- Şərqi, yəni Kürdüstan (əhalisinin əsasən (?!-İ.M.) *kürdlərdən ibarət olmasına görə* (seçdirmə bizimdir-İ.M; sənəddə bu cür yazılmışdır). Yeri gəlmişkən, Azərbaycanın Aran-Aşağı-Şərqi Zəngəzur regionunda Kürdüstan yaradılması "ideya məsələsi" əslində Rusiya ilə ermənilərin birgə uzaqgedən geosiyasətinin bir hissəsi idi. Bu kimi planlar Rusiyanın yenidən Azərbaycanda möhkəmlənməsinin təminatına və Zəngəzurun tədricən (hissə-hissə) Ermənistana verilməsinə xidmət edirdi.

Zəngəzurun bu sayaq bölgüsü izahat vərəqəsində və digər sənədlərdə belə "əsaslandırılırdı". Yəni mahalın:

- ərazicə böyüklüyü önə çəkilirdi;
- təbii-coğrafi relyefində dağ yüksəklikləri və dərin dərələrin üstünlüyü vurğulanırdı;
- qış vaxtı tamamilə keçilməz olması qeyd edilirdi;
- bunlara görə də bir inzibati mərkəzdən idarəsinin çətinliyi və hətta qeyri-mümkünlüyü qənaətinə gəlinirdi;
- güneydən quzeyə doğru bölgüsü şəraitində yeni yaradılan qəzalara əkinlərin, otlaqların, meşələrin düşəcəyi və əhalinin isə qarışıq tərkibli (ermənilər və müsəlmanlardan ibarət) olacağı və bu halda – aralarında düşmənçilik münasibətləri olan – iki millətin həmrəyliyinin möhkəmlənəcəyi (?!-İ.M.) nəzərdə tutulurdu.

Ümumiyyətlə isə bu təklif müəyyən ziddiyyətli məqamlara malik idi və bəri başdan, bəzi ciddi şübhələr yaradırdı. Həmin təklif – bölünmə Zəngəzurun gələcəkdə (sonralar) Azərbaycandan tamamilə qopardılmasına hesablanmışdı. O, Azərbaycanın Ermənistana yeni-yeni, sonrakı "torpaq bəxşişləri"nə (ərazi güzəştlərinə) yol açır və zəmanət-təminat şəraitini yaradırdı.

Bu kimi müddəaları təsdiqləyən tarixi faktların mövcudluğu danılmazdır. Məsələn, SSRİ dönəmində Azərbaycanın Sovet Ermənistanına da-

vamlı ərazi güzəştləri. Həmçinin Şərqi Zəngəzurun Rusiyanın himayəsi ilə Ermənistan tərəfindən 30 il sürən işğalı və s. (Azərbaycan Ordusu tarixi zəfəri ilə bu istilaya son qoydu).

Azərbaycanın yeni inzibati-iqtisadi bölgüsündə Zəngəzurla bağlı məsələlər ətraflı müzakirələrə səbəb oldu və mübahisələr yaratdı. Belə mühüm fikir mübadiləsi mərkəzlərindən biri də Azərbaycan SSR-in yeni inzibati-iqtisadi bölgüsünün hazırlanması üzrə Respublika İnqilab Komitəsi İdarələrarası Komissiyasının (sədri Çikalo) iclasları oldu.

Komissiyanın 1921-ci il 2 aprel tarixli iclasında (4 saylı protokol) onun üzvü Vəkilov keçmiş Zəngəzur qəzasının iki yerə ayrılmasına dair mövcud təkliflərlə razılaşmamışdı (14, v.62 arx.) O öz mövqeyini əsaslandırarkən bu məqamları önə çəkərək bildirmişdi ki, müəyyən mülahizələr bölgənin iki hissəyə ayrılmasından ötrü:

- heç də əsas vermir;
- ciddi və tutarlı dəlillər sayıla bilməz;
- yalnız bəzi siyasi mənafe və maraqlara xidmət edir.

Komissiyanın üzvlərindən Şimanovski və Hacıyev başqa köklü dəlillərlə qəzanın bölünməsinə qarşı çıxmışdılar:

- Zəngəzurun iqtisadi-təsərrüfat cəhətdən yekcinsliyi;
- bu cür (növ) təsərrüfat vahidinin vahid mərkəzdən idarəsinin xeyli əlverişliliyi və rahatlılığı.

Qurumun (komissiyanın) sədri Çikalo isə:

- regionun iki yerə parçalanmasını inzibati baxımdan da məqsədəuyğun saymamışdı;
- yolların olmadığı bir şəraitdə qəzanın idarəçiliyindəki çətinliyin onu bölməklə aradan qaldırılacağını qeyri-mümkün hesab etmişdi.

Bir xeyli çəkən müzakirələrdən sonra komissiya qəzanı əvvəlki inzibati sərhədlərdə-hüdudlarda saxlamağı qərara aldı. Azərbaycan SSR daxili-inzibati sərhədlərinin komissiyanın iclaslarının protokolları (1921-ci il: 12 mart (№1); 14 mart (№2); 24 mart (№3) və 2 aprel (№4) əsasında tərtib olunan təsvirində də Zəngəzur qəzasının köhnə sərhədlərdə qaldığı bir daha təsbit edilmişdi (14, v.87-88 arx.; 15, v.94-99).

Zəngəzurla bağlı ərazi-sərhəd müzakirələri AK(b) P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il aprelin 13-də keçirilən iclasının gündəliyində də özünə yer aldı; orada "Zəngəzur qəzası haqqında" məsələ müzakirə edildi (16, v.38-39). Vəziyyəti yerindəcə aydınlaşdırmaqdan ötrü isə bölgəyə L.Mirzoyan, Ç.İldırım və b. ibarət komissiya göndərilməsi qərara alındı.

Məlum ərazi-sərhəd məsələlərinə Azərbaycan Sovetlərinin 1921-ci ilin mayında olan birinci qurultayında da diqqət yetirildi (17, s.80-82).

Daha bir uyğun müzakirə 1921-ci il mayın 31-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin (MİK-in) iclasında aparıldı (18, v.4). Bu-

rada Zəngəzur qəzasındakı vəziyyət barədə məsələ də müzakirə edildi. Habelə Qubadlı qəzasının məsrəflərinin Azərbaycan SSR Xalq komissarlıqlarının büdcəsinə (smetasına) daxil edilməsi araşdırıldı. Ayrıca bir qərarla isə Zəngəzur (Qubadlı) qəzası üzrə inzibati-təsərrüfat aparatının təşkili vacib bilindi.

Bölgədəki olduqca mürəkkəb və çətin siyasi-iqtisadi şəraitdə İrəvandakı Sovet hökuməti ilə Rusiyanın XI ordusunun komandanlığı Qərbi Zəngəzurun Ermənistana birləşdirilməsinin qəti olaraq (özü də, əsasən, döyüşlərsiz) başa çatdırılması üçün hərbi-diplomatik səciyyəli tədbirlər gördülər. Onların sırasında müəyyən müzakirələr (danışıqlar) da mühüm yer tuturdu.

Belə müzakirələrdən biri 1921-ci il mayın ortalarında Ermənistan SSR və XI ordunun komandanlığının xüsusi nümayəndə heyəti tərəfindən "Dağlıq Ermənistan hökuməti" ilə aparılmışdı (19, s.156). (Sözgəlişi, bu oyuncaq qurum ermənilərin Qarabağ və Zəngəzurdakı daha bir saxta-formal rejimi olan "Sunik hökuməti"nin varisi sayılırdı).

Başında Njdenin dayandığı bu varisə-quruma "Yeni Ermənistan hökuməti"də deyirdilər (20, s.519). Nəticəsiz qalan həmin müzakirələrin keçirilməsindən ötrü Njde rejimi tərəfindən qoyulan şərtlər arasında biri xüsusi məqsədlər güdürdü. O şərt bundan ibarət idi: "Zəngəzurda torpaq məsələsinin kəndlilərin xeyrinə həlli".

Bu və digər müzakirələrin davam etdiyi bir şəraitdə, yəni 1921-ci ilin iyulunda Zəngəzur Rusiya tərəfindən yenidən işğal edildi. Bununla qəzanın (qərb və ya yuxarı dağlıq) hissəsinin Ermənistana qatılması da başa çatdırıldı. Bu müddəanı bir sıra siyasi-inzibati səciyyəli qarşılıqlı tədbirlər (aktlar) da təsdiqləyir:

- Respublika İnqilab Komitəsinin Azərbaycan SSR-də əhalinin siyahıya alınmasına dair 1921-ci il 19 may tarixli dekretində Zəngəzur qəzasının adı qeyd edilmədi (21, s.485).
- Əks yöndə (halda) isə Ermənistanda 1921-ci il iyulun 20-də təsbit edilən ərazi-inzibati bölgüyə əsasən 33 sahədən ibarət 8 qəza təşkil olundu və çox tezliklə də 9-cusu (Zəngəzur) yaradıldı (22, s.62).
- Artıq 1922-ci ilin əvvəli üçün Azərbaycan Baş Milisinin məlumatlarında da Zəngəzurun adı çəkilmədi (23, v.1-2).

Zəngəzurun qərbinə (Sisyan, Gorus, Qafan ərazilərinə) sahiblənən ermənilər həm də onun şərqinə (Zəngilan, Qubadlı və s. torpaqlarına) yiyələnməyə səy göstərdilər. Bölgənin tam ilhaqına nail olmaq üçün Şərqi Zəngəzurun daxili işlərinə çoxşaxəli kobud müdaxilələr etdilər. Bunlara son qoyulmasından ötrü 1921-ci ilin payızında qonşu qəzalar, yəni artıq Ermənistanın tərkibində olan Zəngəzurla Qubadlı arasındakı mübahisələr, problemlər araşdırıldı.

Azərbaycan SSR-in Qubadlı qəzası İcraiyyə Komitəsinin 1921-ci il 27 sentyabr tarixli iclasının 10 saylı protokolundan da (24, v.91-92) bəlli olur ki, bu müzakirələrdə başlıca məsələ qəzalararası inzibati sərhədlərin təyin edilməsi (müəyyənləşdirilməsi) olmuşdu. Protokolda tərəflərin mövqelərini açıqlayan bəzi məqamlar ifadə edilmişdi:

- Azərbaycan tərəfi (Qubadlı qəza rəisi Hüseynov) – onun təsvir (qeyd) etdiyi hüdudlar daxilindəki bütün kəndlər qəza icraiyyə Komitəsinə tabedirlər və onun kreditlərindən maaş, habelə ərzaq almışlar, alırlar;
- Ermənistan tərəfi – fikir ayrılıqlarına görə məsələ hələlik açıq saxlanmalı idi.

Bunu da qeyd edək ki, iclasın bu məsələ ilə bağlı hansı qərarı qəbul etməsi protokolda qeyd olunmamışdı.

**Nəticə**. Məqalədə aparılan elmi araşdırmalar əsasında gəlinən qənaətlər aşağıdakılardan ibarətdir:

- məlum qərarlarla və bəyanatla Zəngəzurun (Naxçıvanın da) bütünlüklə Ermənistana ilhaqı planlaşdırılmışdı;
- müəyyən səbəblərə görə bölgə iki hissəyə ayrıldı və o vaxt yalnız Qərbi Zəngəzur Ermənistana birləşdirildi;
- Dağlıq (Yuxarı) Zəngəzurun Ermənistana qatılması dərhal baş vermədi;
- Rusiya ilə ermənilərin geostrategiyasına əsasən Azərbaycanın ərazi bütövlüyünə növbəti (yeni) qəsd baş tutdu;
- 1921-ci ildə Zəngəzurla bağlı xeyli çəkən delimitasiya-demarkasiya prosesləri yaşandı və bu kontekstdə müzakirələr aparıldı;
- öyrənilən dövrün acı təcrübəsinin fəsadları hazırda "Zəngəzur (Mehri) dəhlizi" məsələsindəki beynəlxalq səciyyəli siyasi-diplomatik oyunlara ciddi təsir göstərməkdədir və s.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f.28, siyahı №1, iş №201.
2. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA): f.276, siyahı №9, iş №48.
3. Международная политика новейшего времени в договорах, нотах и декларациях, часть III, выпуск I.- Москва: Политиздат-1928.
3[a] ARPİİSSA:f.1, siyahı №1, iş №22.
4. ARPİİSSA:f.1, siyahı №1, iş №24.
5. ARPİİSSA:f.1, siyahı №1, iş №14.
6. ARPİİSSA:f.456, siyahı №14, iş №102.
7. ARPİİSSA:f.1, siyahı №7, iş №24.
8. ARPİİSSA:f.1, siyahı №7, iş №124.
9. Газ. «Коммунист», - Баку, 1920, 2 декабря.
10. Газ. «Бакинский рабочий», - Баку, 1920, 3 декабря.

11. Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). 2-ci nəşri. –Bakı: 1998. -385s.
12. ARPİİSSA: f.1, siyahı №2, iş №18.
13. ARPİİSSA: f.1, siyahı №74, iş №123.
14. ARDA: f.28, siyahı №1, iş №42.
15. ARDA: f.28, siyahı №1, iş №138.
16. ARPİİSSA: f.1, siyahı №1, iş №18.
17. Первый Всеазербайджанский съезд Советов. Стенографический отчёт. – Баку: 1922.
18. ARDA: f.379, siyahı №1, iş №7483.
19. Акопян, и др. Очерки по истории Советской Армении. – Ереван, 1955.
20. Вартанян, С. Победа Советской власти в Армении. – Ереван: 1959.
21. Декреты Азревкома. – Баку: 1988.
22. Собрание декретов и приказов СССР Армении, выпуск II. –Ереван: 1923.
23. ARDA: f.27, siyahı №4, iş №31.
24. ARDA: f.27, siyahı №4, iş №37.

## ТЕРРИТОРИАЛЬНО -ПОГРАНИЧНЫЕ ОБСУЖДЕНИЯ ПО ЗАНГЕЗУРУ (1920-1921гг.)

**Исмаил М.МУСА**

### РЕЗЮМЕ

В статье рассматриваются территориально - пограничные обсуждения Азербайджана с Арменией относительно Зангезурского региона. Основное внимание уделено анализу многочисленных заседаний-споров-положений-предложений-решений-результатов. Это исследование ввело в научный оборот ряд политико-дипломатических документов. Определённые выводы были сделаны также по «Зангезурскому (Мегринскому) коридору» и т. д.

**Ключевые слова:** Азербайджан, Зангезур, Армения, регион, обсуждения, раздел, аннекция, Западный Зангезур, коридор.

## TERRITORIAL-BORDER NEGOTIATIONS ON ZANGEZUR (1920-1921)

**İsmail M.MUSA**

### SUMMARY

The article examines the territorial-border discussions of Azerbaijan with Armenia regarding the Zangezur region. The main attention is paid to the analysis of numerous meetings-disputes-provisions-proposals-decisions-results.

This research has brought a number of political-diplomatic documents into scientific circulation. Certain conclusions have also been reached in the work regarding the “Zangezur (Mehri) Corridor”, etc.

**Keywords:** Azerbaijan, Zangezur, Armenia, region, discussions, division, annexation, Western Zangezur, corridor.